

*Müsahibimiz Qubadlı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Telman Cəfərovdur. Telman müəllimlə Qubadlının süqutunun ildönümü ərəfəsində görüşdük. Fikrimiz kollektivin bu günkü fəaliyyəti haqqında məlumat almaq olsa da xəyalən ötən dövrə-Qubadlının bəxtəvər, çal-çağırlı çağlarına da qayıtdıq. Bu barədə aşağıda ətraflı bəhs edəcəyik. Hələlik isə oxucularımızı həmsöhbətimizlə tanışlığa çağırırıq.*

# Başımızı dik tutmaq üçün

Telman Bahadur oğlu Cəfərov 1949-cu ildə Qubadlı rayonunun Qaralar kəndində anadan olub. 1946-cı ildə Bakı mədəni-maarif texnikumunu, 1975-ci ildə isə ADMİU-nu (M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu) bitirib. Musiqi məktəbində müəllim və direktor vəzifələrində çalışıb. 1994-cü ildən Qubadlı Rayon Mədəniyyət, 2006-cı ildən Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

- On dörd ildir ki, qubadlılar doğma torpaqlarının həsrətindədir...

14 ildir Qubadlısızıq... 14 ildir ki, Qubadlı nisgilini, acısını bütün ağrıları ilə yaşayır və ürəyimizdə daşıyırıq. Çox ağır və dözülməz dərd olsa da, etiraf etməliyik ki, bu yüz ildən bəri ürəyimizdə gəzdirdiyimiz dərya-dərya dərdlərin üzərinə yenisinin əlavə olunmasıdır.

O qədər bölüm-bölüm bütöv Vətən dərdi ilə yaşamışıq ki, bizim ürəklərimiz də Vətənimiz kimi, bölüm-bölüm, cadar-cadardır. Bu qədər dərd ilə yaşayıb, mübarizə apara bilən xalq böyük xalqdır.

Biz Tanrımıza və dərdimizə tapınan bir millətik.

İndi Sizinlə söhbət edərkən xəyalən ötən günlərə qayıdıram, bu günümüzlə dünənimizi fərqləndirirəm. 94 kənddən ibarət rayonumuz bu gün respublikanın 45 bölgəsinə səpələnib. Əhalinin 45 faizi Sumqayıtda məskunlaşıb. 84 kənd kitabxanamız, 44 klubumuz, 11 mədəniyyət evimiz, 2 musiqi məktəbimiz, 1 tarix-diyarşünaslıq muzeyimiz, 1 mədəniyyət və istirahət parkımız, 1 kinoteatrımız olub.

Hazırda onlardan 6-sı (1 MKS, 1 muzey, 2 musiqi məktəbi, 1 rayon və 1 kənd mədəniyyət evi) fəaliyyətini bərpa edib. 263 işçimiz var. Onlardan 160 nəfəri bərpa olunmuş müəssisələrdə çalışır. Təbii ki, tədbirlər zamanı digər mədəniyyət işçilərinin əməyindən də istifadə edirik.

***- Telman müəllim, düşünürəm ki, bəlkə bir başqa əhval-ruhiyyədə böyüyüb tərbiyə alsaydıq bu bəlalara mübtəla olmazdıq.***

- Biz bir xalq kimi, bir millət kimi mövcud olandan üzü bəri hər şeyə rəhimdillilik prizmasından baxmışıq. Süfrələrimiz həmişə qonaq üzünə açıq olub, özümüz ac qalsaq da, yeməyin yaxşısını qonağın qabağına qoymuşuq, başlarına dolanmışıq. Ancaq heç ağlımıza da gəlməyib ki, başına dolandıqlarımız nə vaxtsa bizi barmaqlarına dolayacaqlar. Tarixi bir həqiqətdir ki, bineyi-qədimdən yurd-yuvaları olmayan bir millətdirlər. Ta qədimdən nəinki Qarabağ ərazisində, heç sonradan Ermənistan adlanan Qərbi Azərbaycan ərazisində belə bir nəfər də olsun erməni yaşamayıb. O yerlərin hamısı türk torpaqlarıdır və böyük dövlətlər öz maraqlarını müdafiə nöqteyi-nəzərincə bu qaraçı milləti gətirib bu ərazidə yerləşdiriblər.

Xristian dövlətləri üçün belə bir qondarma dövlətin məhz bu ərazidə yaranması birdə ona görə lazım idi ki, məqamı gələndə ondan türk-müsəlman dövlətlərinə qarşı dəyənək kimi istifadə edə bilsinlər. Və beləliklə də qondarma Ermənistan dövləti yaradıldı. Türk xalqının faciəsi də elə buradan başladı.

Bizim günahımız ondadır ki, zaman-zaman susmuş, bu barədə həqiqəti nəinki dünya ictimaiyyətinə, heç doğma övladlarımıza da danışmamışıq, «dost, qardaş ölkəyik», - deyə mahnılar qoşmuş, nəğmələr demişik. Bu da acı nəticəsi. Heç dost, qardaş da bu qədər faciə, fəlakət törədərmi? Bircə bilsəydiniz bizim Qubadlıda nələrimiz qaldı?!

Orada misli bərabəri olmayan, V-VIII, XIII

əsrlərə aid elə abidələrimiz vardı ki... Hamısını «qardaş» dediyimiz quduz ermənilər dağıtdı, yandırdı, qarət etdi. Gec də olsa indi keçirdiyimiz mədəni-kütləvi tədbirlərdə bu haqda geniş söhbət açır, böyüməkdə olan nəsli məlumatlandırırıq.

***- Qubadlıya dönmək ümidiniz itməyib ki?***

- Rəhbəri müdrik və ağıllı olan xalq inamını itirə bilməz. Biz prezidentimizin yeritdiyi müdrik və dönməz siyasəti dəstəkləyir və ona inanırıq.

***- Bəzi ağzıgöyçəklər deyirlər ki, atəşkəs nəyə lazım idi, 14 ildə bir iş görülməyibsə, bundan sonra nə iş görüləcək. Əlbəttə ki, bunlar səhv fikirlərdir.***

- Atəşkəs o dövr üçün qaçılmaz bir reallıq, torpaqlarımızın azad olunması bugünkü günümüz üçün mütləq bir həqiqətdir.

Ümummilli liderimiz Heydər Əliyev çox işlər görüb. Onun layiqli davamçısı, hörmətli prezidentimiz İlham Əliyevin çoxşaxəli fəaliyyəti də göz qabağındadır. Bütün bunlar böyük inam yaradır. Biz inanırıq ki, gecəli-gündüzlü çalışmaların, səylərin tezliklə, qısa müddətdə əməli nəticəsi olacaqdır. Biz addım-addım o nəticəyə yaxınlaşmalıyıq. Və inanırıq ki, o əməli nəticəyə çatacağımız gün çox uzaqda deyil.

Ancaq yuxarıda qeyd elədiyim kimi, biz hələ son sözümüzü deməmişik. Ancaq bu söz deyilməlidir, mütləq deyilməlidir.

Bunu bizdən tapdaq altında inildəyən Vətən torpaqları ulu babalarımızın girov qalan nigaran ruhları tələb edir.

Bunu bizdən dünya xalqları arasında başımızı dik tutub gəzə bilməyimiz tələb edir.

Bunu bizdən üzü vətənə sarı ah çəkə-çəkə dünyasını dəyişən ata-babalarımızın, qardaş-bacılarımızın narahat və məkansız ruhları tələb edir.





Və nəhayət, təhqir olunmuş şərəf və ləyaqətimiz tələb edir.

***- Ötən illərlə müqayisədə şöbənizin fəaliyyətində bir dönüş, canlanma duyulur.***

- Bunu Sizin dilinizdən eşitmək bizim üçün xoşdur. Amma təvazökarlıqdan uzaq olsa da qeyd edim ki, son illər doğrudan da tərəfimizdən xeyli iş görülüb, tədbirlər həyata keçirilib. Nə danım, bunu bir tərəfdən vəzifə borcu tələb edirsə, digər tərəfdən Rayon İcra Hakimiyyəti və Mədəniyyət və Turizm Nazirliyindən gördüyümüz qayğı və diqqətdən ruhlanırıq. İcra başçımız hörmətli Malik İsaqov özünün xidməti maşınını «Volqa»sını şöbəmizə bağışlayıb, hər addımda onun köməyini duyuruq. Elə möhtərəm nazirimiz Əbülfəs Qarayevin və nazirliyimizin digər əməkdaşları haqqında da eyni sözləri söyləməliyik.

Desəm ki, problemimiz yoxdur – yalan olar. Rayon mədəniyyət evi üçün Prezident Apparatı və Milli Məclisdən 250 ədəd oturacaq stulu, müxtəlif inventar almışıq. 450 yerlik bu mədəniyyət evini təmir etməklə gələcəkdə bütün tədbir və yığıncaqlarımızı yüksək səviyyədə keçirmək üçün gözəl şərait yaradardıq. Amma maddi imkanımız yoxdur. Əlaqədar təşkilatların köməyini xahiş edərdik.

Fürsətdən istifadə edib jurnalınızın 40 illik yubileyini də ürəkdən təbrik edir, gərəkli işinizdə sizə böyük uğurlar diləyirik.

**E. HƏSƏNQIZI**